Azərbaycan Respublikası iqtisadiyyat nazirinin
17 may 2024-cü il tarixli 3-21/3-1-F-54/2024
nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında**
**Dövlət Vergi Xidmətinin Aparatının**

**Vergi risklərinin idarə edilməsi baş idarəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra – Dövlət Vergi Xidməti) Aparatının Vergi risklərinin idarə edilməsi baş idarəsi (bundan sonra – Baş idarə) vergilər və məcburi dövlət sosial sığorta haqları, işsizlikdən sığorta haqları, icbari tibbi sığorta haqları, habelə qanunla və Azərbaycan Respublikasının Prezidentinin aktları ilə Dövlət Vergi Xidmətinin səlahiyyətlərinə aid edilmiş digər icbari ödənişlər (bundan sonra – "vergilər və digər icbari ödənişlər") üzrə risklərin vahid mərkəzdə toplanılması, onların təhlili, idarə olunması və aradan qaldırılması sahəsində (bundan sonra - müvafiq sahədə) bu Əsasnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələri icra edən və hüquqları həyata keçirən Dövlət Vergi Xidmətinin Aparatının müstəqil struktur bölməsidir.

1.2. Baş idarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Əsasnaməsi"ni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, İqtisadiyyat Nazirliyinin qərarlarını, Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrlərini və sərəncamlarını (bundan sonra - İqtisadiyyat Nazirliyinin qərarları,

Nazirliyin və Dövlət Vergi Xidmətinin əmrləri və sərəncamlarına münasibətdə - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Baş idarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin Aparatının struktur bölmələri, strukturuna daxil olan qurumları və strukturuna daxil olmayan tabeliyindəki qurumları (bundan sonra - Dövlət Vergi Xidmətinə münasibətdə - Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları), dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Baş idarənin əsas fəaliyyət istiqamətləri

2.1. Baş idarənin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Vergi və digər icbari ödənişlər üzrə risklərin vahid mərkəzdə toplanılması, onların təhlili və emal olunması işini təşkil etmək və bu sahədə metodiki rəhbərliyi həyata keçirmək;

2.1.2. Vergi ödəyicilərinin fəaliyyət növləri üzrə qruplaşdırılması, onların fəaliyyətində mövcud olan risklərin prioritetliyi nəzərə alınmaqla risk avtomatlaşdırılması və risklərin aradan qaldırılması və ya minimuma endirilməsi üçün tədbirlərin görülməsini təmin etmək;

2.1.3. Mümkün vergidən yayınma sxemlərini müəyyən edilməsi və vergidən yayınmaya şərait yaradan halların aradan qaldırılması üçün preventiv tədbirlərin görülməsi işini təşkil etmək və həmin sahədə metodiki rəhbərliyi həyata keçirmək;

2.1.4. Riskli vergi ödəyicilərinin fəaliyyəti üzrə araşdırmanın aparılması və vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi işini aidiyyəti struktur bölmələrlə birgə təşkil etmək, bu sahədə nəzarəti həyata keçirmək;

2.1.5. Müvafiq sahədə dövlət vergi siyasətinin formalaşmasında iştirak etmək;

2.1.6. Müvafiq sahənin inkişafı üçün tədbirlər görmək;

2.1.7. Müvafiq sahədə normayaratma fəaliyyətində iştirak etmək.

## 3. Baş idarənin vəzifələri

3.0. Baş idarə bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Vergilər və digər icbari ödənişlər üzrə risk ssenarilərinin, risk yarada bilən əməliyyatların, habelə riskli əməliyyatlar barədə digər dövlət orqanları tərəfindən təqdim olunmuş məlumatların vahid mərkəzləşdirilmiş informasiya sisteminə daxil edilməsinə nəzarət etmək;

3.0.2. Müəyyən olunmuş ssenarilər üzrə risk aşkarlanan əməliyyatları aşkar etmək və

zəruri hallarda vergi ödəyicilərinə bu əməliyyatlar barədə xəbərdarlıq məktublarının göndərilməsi üçün qanunamüvafiq tədbirlər görmək;

3.0.3. Aşkar edilən riskləri fəaliyyət növləri üzrə və aradan qaldırılma ardıcıllığına görə müxtəlif meyarlar üzrə qruplaşdırmaq;

3.0.4. Risk meyarları və ssenariləri nəzərə alınmaqla iqtisadi fəaliyyət sahələri üzrə təhlillər aparmaq, risk ssenarilərini müəyyən etmək və nəticəsindən asılı olaraq müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlər görmək;

3.0.5. Kompleks vergidən yayınma sxemlərini araşdırmaq və nəticəsindən asılı olaraq müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlər görmək;

3.0.6. Vergi ödəyicilərinin qarşılıqlı əlaqələrinin təhlilini aparmaq, qarşılıqlı əlaqələrin təhlili nəticəsində müəyyən edilmiş vergidən yayınma hallarının aradan qaldırılması və təkrarlanmaması üçün preventiv tədbirlərin görülməsi ilə bağlı tədbirlər həyata keçirmək;

3.0.7. ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirmək, aparılmış əməliyyatların vergi orqanında olan baza məlumatları və digər mənbələr əsasında qarşılıqlı təhlilini aparmaq, belə vəsaitlərdən istifadə zamanı sui-istifadə hallarına yol verilməməsi məqsədilə müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlərin görülməsini təmin etmək;

3.0.8. Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatları vasitəsilə aparılan əməliyyatlar üzrə təhlillər aparmaq və nəticəsindən asılı olaraq müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlər görmək;

3.0.9. Vergi ödəyicilərinin qeydiyyat və uçot məlumatları əsasında təhlillər aparmaq və aşkar olunmuş risklərin aradan qaldırılması üçün müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlərin görülməsini təmin etmək;

3.0.10. Vergilər və digər icbari ödənişlər üzrə risklərin idarə edilməsi ilə bağlı mütəmadi olaraq proseslərin avtomatlaşdırılmasını həyata keçirmək;

3.0.11. Vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyiciləri üzrə vergidən yayınma hallarının gələcəkdə təkrarlanmaması məqsədilə təhlillər aparmaq;

3.0.12. Vergi orqanları tərəfindən barəsində tədbir görülməyən risk hallarını araşdırmaq, aradan qaldırılmaması səbəblərini müəyyən etmək, bununla bağlı metodiki köməklik göstərmək, zərurət yarandığı halda araşdırma aparmaq;

3.0.13. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergiləri və digər icbari ödəmələri ödəməkdən yayınma halları üzrə mütəmadi risk istiqamətlərini müəyyən etmək və təhlil etmək;

3.0.14. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən, habelə sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydada müəyyən edilməsini təşkil etmək və bu barədə təkliflər vermək;

3.0.15. Riskli vergi ödəyiciləri ilə görülmüş işlərin nəticələri əsasında vergi orqanlarının fəaliyyətinin müxtəlif parametrlər üzrə təhlilini aparmaq və müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlər görmək;

3.0.16. Qarşılıqlı əlaqələrin təhlili nəticəsində kənarlaşma aşkar edilən vergi ödəyiciləri barədə məlumatların onların uçotda olduqları və ya nəzarət sahəsi həvalə edilmiş vergi orqanlarına göndərilməsini, görülmüş işlərin effektivliyinin təhlil edilməsini və nəticəsi barədə rübdə bir dəfədən az olmayaraq hesabatların hazırlanaraq Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edilməsini təmin etmək;

3.0.17. İlkin uçot sənədləri əsasında təhlil məlumat bazasının yaradılmasına, daxil olmuş məlumatların təhlilinə, onların tətbiqinə, uçotuna və istifadəsinə nəzarət etmək;

3.0.18. Baş idarənin işi ilə bağlı vergi orqanlarının məlumatlarına əsasən müxtəlif məlumat bazalarının yaradılması barədə təkliflər vermək;

3.0.19. İqtisadi fəaliyyət sahələri üzrə müxtəlif risk meyarlarını müəyyənləşdirmək və qiymətləndirmək;

3.0.20. İqtisadi fəaliyyət sahələri üzrə vergidən və sığorta haqlarından yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi üçün təhlillər aparmaq və onların aradan qaldırılması üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə müvafiq təkliflər vermək;

3.0.21. Vergi orqanları tərəfindən aparılmış təhlillər nəticəsində müəyyən edilən riskli vergi ödəyicilərinin baza məlumatlarına əsasən müvafiq risk meyarlarına uyğunlaşdırılmasını, müvafiq rəylərin verilməsini, eləcə də yekun rəyin verilməsini təmin etmək;

3.0.22. Əvvəllər riskli vergi ödəyicisi siyahısına daxil edilmiş vergi ödəyicilərinin qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq həmin siyahıdan çıxarılması barədə müvafiq rəylərin verilməsini, eləcə də yekun rəyin verilməsini təmin etmək;

3.0.23. Zərurət olduğu hallarda vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar qəbul etmək;

3.0.24. Dövlət və qeyri-dövlət qurumları ilə qarşılıqlı məlumat mübadiləsi işini təşkil etmək;

3.0.25. Dövlət və qeyri-dövlət qurumları ilə Dövlət Vergi Xidməti arasında zəruri hesab edilən məlumatların inteqrasiyasının təmin edilməsini təşkil etmək;

3.0.26. Məlumat mübadiləsi sahəsində avtomatlaşdırılmış vergi informasiya sisteminin təmin edilməsi ilə əlaqədar olaraq dövlət və qeyri-dövlət qurumları ilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında əlaqələndirmənin həyata keçirilməsi məqsədilə təşkilati işləri görmək;

3.0.27. Müvafiq sahə üzrə informasiya təchizatının idarə edilməsini və proqram təminatının müasir tələblərə uyğunlaşdırılması məqsədilə təkmilləşdirilmələrin aparılması üçün mövcud məlumat bazasının aidiyyəti qurumlarda olan məlumat bazasına inteqrasiyası ilə bağlı

təşkilati işləri təmin etmək;

3.0.28. Vergilərin hesablanmasında istifadə etmək məqsədilə əlavə məlumat mənbələrinin növünü və avtomatlaşdırılmış vergi informasiya sisteminə inteqrasiyası üçün formatını müəyyən etmək, məlumatların inteqrasiya edilməsinə nəzarət etmək;

3.0.29. Dövlət Vergi Xidmətinin avtomatlaşdırılmış vergi informasiya sisteminə aidiyyəti qurumlardan daxil olan məlumatların mütəmadi olaraq inventarlaşdırılması və onun optimallaşdırılması məqsədilə təşkilati işləri təmin etmək;

3.0.30. Dövlət və qeyri-dövlət qurumlarından məlumat mübadiləsi çərçivəsində Dövlət Vergi Xidmətinə daxil olan aidiyyəti məlumatların düzgün və vaxtında Dövlət Vergi Xidmətinin uçot məlumat bazasına işlənilməsini təmin etmək;

3.0.31. Dövlət və qeyri-dövlət qurumlarından məlumat mübadiləsi çərçivəsində Dövlət Vergi Xidmətinə daxil olan məlumatların düzgün və vaxtında Dövlət Vergi Xidmətinin uçot məlumat bazasına işlənilməsinə nəzarəti həyata keçirmək;

3.0.32. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq Baş idarənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

3.0.33. Müvafiq sahədə görülmüş işlərin nəticələrini təhlil etmək, dövri arayışlar (hesabatlar) hazırlamaq və Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim etmək;

3.0.34. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.35. Baş idarənin səlahiyyəti daxilində Dövlət Vergi Xidmətinin struktur bölmələrinin və qurumlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.36. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının Baş idarənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.37. Bu əsasnamə ilə Baş idarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Baş idarəyə daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

3.0.38. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli

şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Dövlət Vergi Xidmətinin rəhbərliyinə müvafiq təkliflər vermək;

3.0.39. Baş idarədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

3.0.40. Baş idarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

3.0.41. Dövlət Vergi Xidmətinin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi, bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

3.0.42. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.43. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.0.44. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Baş idarənin hüquqları

4.1. Baş idarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Riskli vergi ödəyicilərinin fəaliyyətinin araşdırılması üçün vergi ödəyicilərinin uçotda olduqları vergi orqanlarına göstərişlərin verilməsi və onların yerinə yetirilməsinin tələb edilməsi barədə rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.0.2. Riskli vergi ödəyicilərində vergi nəzarəti tədbirlərinin keçirilməsi ilə bağlı vergi ödəyicilərinin uçotda olduqları vergi orqanlarına göstərişlərin verilməsi və onların yerinə yetirilməsinin tələb edilməsi barədə rəhbərlik qarşısında məsələ qaldırmaq;

4.0.3. Riskli vergi ödəyiciləri ilə bağlı görülmüş işlərin nəticələrinin qiymətləndirilməsi məqsədilə vergi orqanlarında monitorinqlər həyata keçirmək;

4.0.4. Riskli əməliyyatların sayının minimuma endirilməsi və riskli əməliyyatların aradan qaldırılması ilə bağlı görülən işlərin və vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə rəhbərliyə təkliflər hazırlamaq;

4.0.5. Riskli əməliyyat aparan vergi ödəyicilərinin riskli vergi ödəyicisi olması ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsini vergi orqanlarından tələb etmək;

4.0.6. Barəsində riskli vergi ödəyicisi olması ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisi riskləri aradan qaldırdığı halda həmin vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsini vergi orqanlarından tələb etmək;

4.0.7. Riskli vergi ödəyicilərində keçirilən vergi yoxlamaların səmərəliliyinin artırılması ilə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə aidiyyəti üzrə təkliflər vermək;

4.0.8. Baş idarənin funksional fəaliyyəti ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəriciləri sistemini, hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

4.0.9. Vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarının və qərarlarının ləğv edilməsi barədə aidiyyəti üzrə təkliflər vermək;

4.0.10. Müvafiq sahə üzrə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğular hazırlamaq və onlardan belə məlumatları (sənədləri) Dövlət Vergi Xidmətinin rəhbərliyi vasitəsilə almaq;

4.0.11. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, aidiyyəti üzrə təkliflər vermək;

4.0.12. Baş idarənin, riskli əməliyyatlar aparan vergi ödəyicilərində araşdırma və vergi nəzarəti tədbiri keçirən strukturların və onların fəaliyyətinin təkmilləşdirilməsi, vəzifə və hüquqlarına aid dəyişikliklərin edilməsi istiqamətində öz səlahiyyətləri daxilində Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.13. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq;

4.0.14. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Dövlət Vergi Xidmətinin rəhbərliyinə təkliflər vermək;

4.0.15. Aşkar edilmiş vergidən yayınma sxemlərini dərc edilməyə təqdim edilməsi üçün vergi qanunvericiliyinin tətbiqinə nəzarəti həyata keçirən aidiyyəti struktur bölməyə təqdim etmək;

4.0.16. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

4.0.17. Vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasının tələb edilməsi üçün təkliflər hazırlamaq;

4.0.18. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi orqanlarına tövsiyələr vermək üçün təkliflər hazırlamaq;

4.0.19. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktubunun hazırlanmasını təmin etmək;

4.0.20. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Baş idarənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Dövlət Vergi Xidmətini təmsil etmək;

4.0.21. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

4.0.22. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.0.23. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.24. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.25. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Baş idarənin fəaliyyətinin təşkili

5.1. Baş idarənin strukturunu və ştat cədvəlini Azərbaycan Respublikasının iqtisadiyyat naziri təsdiq edir.

5.2. Baş idarənin strukturuna 6 müstəqil şöbə (Əməliyyatlar üzrə risklərə nəzarət şöbəsi, Fəaliyyət sahələrinə nəzarət üzrə 1-ci şöbə, Fəaliyyət sahələrinə nəzarət üzrə 2-ci şöbə, Fəaliyyət sahələrinə nəzarət üzrə 3-cü şöbə, Fəaliyyət sahələrinə nəzarət üzrə 4-cü şöbə və İnformasiya təminatı və hesabatlıq şöbəsi) daxildir.

5.3. Baş idarənin fəaliyyətinə İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Baş idarənin rəisi rəhbərlik edir. Baş idarə rəisi Baş idarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Baş idarənin rəisinin İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Dövlət Vergi Xidmətinin rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini (müavinləri) vardır. Baş idarənin rəis müavini (müavinləri) vəzifə bölgüsünə, habelə baş idarənin rəisi tərəfindən ona (onlara) həvalə edilmiş vəzifələrə uyğun olaraq fəaliyyət göstərir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Baş idarənin rəisi olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Baş idarənin rəis müavini (müavinlərindən biri) həyata keçirir.

5.6. Baş idarənin digər vəzifəli şəxsləri Dövlət Vergi Xidmətinin rəisi və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.7. Baş idarənin rəisi:

5.7.1. Baş idarənin fəaliyyətini təşkil edir, ona rəhbərlik edir və Baş idarəni təmsil edir;

5.7.2. Tabeliyində olan vəzifəli şəxslər tərəfindən əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

5.7.3. Baş idarəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir;

5.7.4. Baş idarə rəisinin müavininin (müavinlərinin) vəzifə bölgüsünü aparır və müvafiq fəaliyyət sahələrinin idarə olunmasını ona (onlara) həvalə edir;

5.7.5. Baş idarə üzrə İqtisadiyyat Nazirliyinin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edir;

5.7.6. Baş idarənin əməkdaşlarının kadr yerdəyişməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdimatlar verir;

5.7.7. Baş idarəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumlarından zəruri məlumat və sənədləri alır;

5.7.8. Baş idarəyə daxil olan müraciətlərin baxılması işini təşkil edir, habelə daxili sənədlərin imzalanmasını həyata keçirir;

5.7.9. Baş idarənin statistik və digər hesabatlarını Dövlət Vergi Xidmətinin rəhbərliyinə təqdim edir.

5.7.10. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələri icra edərkən və hüquqları həyata keçirərkən zərurət yarandığı hallarda Baş idarənin strukturuna daxil olan bir şöbənin əməkdaşının (əməkdaşlarının) digər şöbələrin işlərinin yerinə yetirilməsinə cəlb edir.

5.8. Baş idarənin rəisi və onun müavini (müavinləri), şöbə rəisləri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla tabeliklərində olan hər bir əməkdaş üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına gündəlik nəzarət edir və buna görə bilavasitə cavabdehdirlər.

5.9. Baş idarənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Baş idarənin strukturuna daxil olan şöbələrin hüquq və vəzifələri:

**6.1. Əməliyyatlar üzrə risklərə nəzarət şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.1.1. Vergi ödəyicilərinin qarşılıqlı əlaqələrinin təhlilini aparmaq və aparılan təhlilin nəticələrinə əsasən Baş idarənin rəhbərliyinə məlumat vermək;

6.1.2. Qarşılıqlı əlaqələrin təhlili nəticəsində kənarlaşma aşkar edilən vergi ödəyiciləri barədə məlumatların onların uçotda olduqları və ya nəzarət sahəsi həvalə edilmiş vergi orqanlarına göndərilməsini, görülmüş işlərin effektivliyinin təhlil edilməsini və nəticəsi barədə

rübdə bir dəfədən az olmayaraq hesabatların hazırlanaraq baş idarənin rəhbərliyinə təqdim edilməsini təmin etmək;

6.1.3. Qarşılıqlı əlaqələrin təhlili nəticəsində müəyyən edilmiş vergidən yayınma hallarının aradan qaldırılması və təkrarlanmaması üçün preventiv tədbirlərin görülməsi ilə əlaqədar baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.4. İlkin uçot sənədləri əsasında təhlil məlumat bazasının yaradılmasına, daxil olmuş məlumatların təhlilinə, onların tətbiqinə, uçotuna və istifadəsinə nəzarət etmək;

6.1.5. ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin hərəkətinə nəzarəti həyata keçirmək, aparılmış əməliyyatların vergi orqanında olan baza məlumatları və digər mənbələr əsasında qarşılıqlı təhlilini aparmaq, belə vəsaitlərdən istifadə zamanı sui-istifadə hallarına yol verilməməsi məqsədilə baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.1.6. Şöbənin işi ilə bağlı vergi orqanlarının məlumatlarına əsasən müxtəlif məlumat bazalarının yaradılması barədə təkliflər vermək;

6.1.7. Vergilər və digər icbari ödənişlər üzrə risklərin idarə edilməsi ilə bağlı mütəmadi olaraq proseslərin avtomatlaşdırılmasını həyata keçirmək;

6.1.8. Vergi orqanları tərəfindən aparılmış təhlillər nəticəsində müəyyən edilən riskli vergi ödəyicilərinin baza məlumatlarına əsasən müvafiq risk meyarlarına uyğunlaşdırılmasını, müvafiq rəylərin verilməsini, eləcə də yekun rəyin verilməsini təmin etmək;

6.1.9. Əvvəllər riskli vergi ödəyicisi siyahısına daxil edilmiş vergi ödəyicilərinin qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq həmin siyahıdan çıxarılması barədə müvafiq rəylərin verilməsini, eləcə də yekun rəyin verilməsini təmin etmək;

6.1.10. Zərurət olduğu hallarda vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar qəbul etmək;

6.1.11. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergiləri və digər icbari ödəmələri ödəməkdən yayınma halları üzrə mütəmadi risk istiqamətlərini müəyyən etmək və təhlil etmək;

6.1.12. Daxili məlumatlar və aidiyyəti dövlət orqanları tərəfindən daxil olmuş məlumatlar əsasında vergidən, habelə sığorta haqlarını ödəməkdən yayınma risklərinin avtomatlaşdırılmış qaydada müəyyən edilməsini təşkil etmək və bu barədə təkliflər vermək;

6.1.13. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, təşkilati-sərəncamverici sənədlər ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.1.14. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə Baş idarəyə

daxil olmuş məktub, sorğu, ərizə, şikayət, təklif və digər sənədlərə (inzibati, korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə şikayətlər və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, həmin sənədlərin araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

6.1.15. Şöbə tərəfindən görülmüş işlərin nəticələrini təhlil etmək, dövri arayışlar (hesabatlar) hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.1.16. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.1.17. Baş idarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.1.18. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

6.1.19. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.1.20. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi, bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.1.21. Səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.1.22. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.1.23. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.2. Əməliyyatlar üzrə risklərə nəzarət şöbəsinin hüquqları aşağıdakılardır:**

6.2.1. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin icrası ilə bağlı İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət qurumlarına və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğular hazırlamaq;

6.2.2. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr, aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, aidiyyəti üzrə təkliflər vermək;

6.2.3. Bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar

vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq;

6.2.4. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.2.5. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, vəzifə və hüquqlarına aid dəyişikliklərin edilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.6. Riskli əməliyyat aparan vergi ödəyicilərinin riskli vergi ödəyicisi olması ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsi barədə baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.7. Barəsində riskli vergi ödəyicisi olması ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisi riskləri aradan qaldırdığı halda həmin vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsi barədə baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.8. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.2.9. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək;

6.2.10. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Baş idarənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.2.11. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.2.12. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.2.13. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

6.2.14. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.3. Fəaliyyət sahələrinə nəzarət üzrə 1-ci, 2-ci, 3-cü, 4-cü şöbələrin vəzifələri aşağıdakılardır:**

6.3.1. Vergilər və digər icbari ödənişlər üzrə risk ssenarilərinin, risk yarada bilən əməliyyatların, habelə riskli əməliyyatlar barədə digər dövlət orqanları tərəfindən təqdim olunmuş məlumatların vahid mərkəzləşdirilmiş informasiya sisteminə daxil edilməsinə nəzarət etmək;

6.3.2. Müəyyən olunmuş ssenarilər üzrə risk aşkarlanan əməliyyatları aşkar etmək və

zəruri hallarda vergi ödəyicilərinə bu əməliyyatlar barədə xəbərdarlıq məktublarının göndərilməsi üçün qanunamüvafiq tədbirlər görmək;

6.3.1. Aşkar edilən riskləri fəaliyyət növləri üzrə və aradan qaldırılma ardıcıllığına görə müxtəlif meyarlar üzrə qruplaşdırmaq;

6.3.2. Risk meyarları və ssenariləri nəzərə alınmaqla iqtisadi fəaliyyət sahələri üzrə təhlillər aparmaq, risk ssenarilərini müəyyən etmək və nəticəsindən asılı olaraq müvafiq təkliflər vermək;

6.3.3. Kompleks vergidən yayınma sxemlərini araşdırmaq və onların aradan qaldırılması ilə əlaqədar təkliflər vermək;

6.3.4. Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatları vasitəsilə aparılan əməliyyatlar üzrə təhlillər aparmaq və nəticəsindən asılı olaraq müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlər görmək;

6.3.5. Vergi ödəyicilərinin qeydiyyat və uçot məlumatları əsasında təhlillər aparmaq və aşkar olunmuş risklərin aradan qaldırılması üçün müvafiq qaydalarla müəyyən edilmiş zəruri tədbirlərin görülməsini təmin etmək;

6.3.6. İqtisadi fəaliyyət sahələri üzrə müxtəlif risk meyarlarını müəyyənləşdirmək və qiymətləndirmək;

6.3.7. İqtisadi fəaliyyət sahələri üzrə vergidən və sığorta haqlarından yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi üçün təhlillər aparmaq və onların aradan qaldırılması üçün Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.3.8. Riskli vergi ödəyiciləri ilə görülmüş işlərin nəticələri əsasında vergi orqanlarının fəaliyyətinin müxtəlif parametrlər üzrə təhlilini aparmaq və Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.3.9. Vergi nəzarəti tədbirləri keçirilmiş vergi ödəyiciləri üzrə vergidən yayınma hallarının gələcəkdə təkrarlanmaması məqsədilə təhlillər aparmaq və nəticəsi üzrə Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.3.10. Vergi orqanları tərəfindən barəsində tədbir görülməyən risk hallarını araşdırmaq, aradan qaldırılmaması səbəblərini müəyyən etmək, bununla bağlı metodiki köməklik göstərmək, zərurət yarandığı halda araşdırma aparmaq;

6.3.11. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədləri ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.3.12. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil

olmuş məktub, sorğu, ərizə, şikayət təklif (inzibati şikayətlər, korrupsiya və vergi ödəyicilərinin vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla), qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.3.13. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.3.14. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

6.3.15. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.3.16. Baş İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.3.17. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.3.18. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.3.19. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.3.20. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.3.21. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.3.22. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.3.23. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.4. Fəaliyyət sahələrinə nəzarət üzrə 1-ci, 2-ci, 3-cü, 4-cü şöbələrin hüquqları aşağıdakılardır:**

6.4.1. Riskli vergi ödəyicilərinin fəaliyyətinin araşdırılması üçün və ya riskli vergi ödəyicilərində vergi nəzarəti tədbirlərinin keçirilməsi ilə bağlı vergi ödəyicilərinin uçotda olduqları vergi orqanlarına göstərişlərin verilməsi barədə baş idarənin rəhbərliyi qarşısında

məsələ qaldırmaq;

6.4.2. Riskli vergi ödəyiciləri ilə bağlı görülmüş işlərin nəticələrinin qiymətləndirilməsi məqsədilə vergi orqanlarında monitorinqlər həyata keçirmək;

6.4.3. Riskli əməliyyatların sayının minimuma endirilməsi və riskli əməliyyatların aradan qaldırılması ilə bağlı görülən işlərin və vergi qanunvericiliyinin təkmilləşdirilməsi barədə baş idarənin rəhbərliyinə təkliflər hazırlamaq;

6.4.4. Riskli əməliyyat aparan vergi ödəyicilərinin riskli vergi ödəyicisi olması ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsi üçün təkliflər vermək;

6.4.5. Riskli əməliyyatlar aparan vergi ödəyicilərində araşdırma və vergi nəzarəti tədbiri keçirən strukturların və onların fəaliyyətinin təkmilləşdirilməsi, vəzifə və hüquqlarına aid dəyişikliklərin edilməsi istiqamətində öz səlahiyyətləri daxilində baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.6. Vergi orqanlarının və onların vəzifəli şəxslərinin qeyri-qanuni aktlarının və qərarlarının ləğv edilməsi ilə bağlı baş idarənin rəhbərliyinə aidiyyəti üzrə təkliflər vermək;

6.4.7. Riskli vergi ödəyicilərində keçirilən vergi yoxlamaların səmərəliliyinin artırılması ilə bağlı baş idarənin rəhbərliyinə aidiyyəti üzrə təkliflər vermək;

6.4.8. Vergi ödəyicilərindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasının tələb edilməsi üçün təkliflər hazırlamaq;

6.4.9. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi orqanlarına tövsiyələr vermək üçün təkliflər hazırlamaq;

6.4.10. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq və təkliflər vermək;

6.4.11. Müvafiq sahə üzrə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət qurumlarına və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğular hazırlamaq;

6.4.12. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, vəzifə və hüquqlarına aid dəyişikliklərin edilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.13. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.4.14. Bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq;

6.4.15. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.4.16. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici

sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.4.17. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək;

6.4.18. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Baş idarənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.4.19. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.4.20. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.4.21. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

6.4.22. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6.5. İnformasiya təminatı və hesabatlıq şöbəsinin vəzifələri aşağıdakılardır:**

6.5.1. Baş idarənin struktur bölmələri tərəfindən riskli vergi ödəyiciləri ilə bağlı aparılmış araşdırmalar, riskli əməliyyatların qarşısının alınması üzrə görülmüş işlərin nəticələri barədə analitik məlumatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.5.2. Baş idarənin struktur bölmələri tərəfindən riskli vergi ödəyiciləri ilə bağlı aparılmış araşdırmaların nəticəsində yerli vergi orqanları tərəfindən görülmüş işlər, o cümlədən riskli əməliyyatların qarşısının alınması və ya keçirilmiş vergi nəzarəti tədbirləri barədə məlumatları ümumiləşdirmək və Baş idarənin rəhbərliyinə müəyyən olunmuş dövrlər üzrə arayış təqdim etmək;

6.5.3. Riskli əməliyyat aparan vergi ödəyicilərinin riskli vergi ödəyicisi elan edilməsi və ya barəsində riskli vergi ödəyicisi elan edilməsi ilə bağlı qərar qəbul edilmiş vergi ödəyicisinin riskli vergi ödəyicisi siyahısından çıxarılması ilə bağlı təhlillər aparmaq, təhlilin nəticəsi üzrə analitik məlumatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə müəyyən olunmuş dövrlər üzrə arayış təqdim etmək;

6.5.4. Baş idarənin struktur bölmələrinin Dövlət Vergi Xidmətinin mövcud informasiya bazalarına daxil olma, informasiya əldə etmə, informasiya təminatı ilə bağlı mövcud resurslardan istifadə tələbatlarının müəyyən etmək və Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.5.5. Baş idarənin digər strukturlarından onların fəaliyyətləri barədə daxil olmuş hesabatları ümumiləşdirərək Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.5.6. Baş idarənin aidiyyəti struktur bölmələrinin fəaliyyətində yol verilə biləcək nöqsan və çatışmazlıqların vaxtında müəyyənləşdirilməsi üçün fəaliyyət göstəricilərinin ilkin təhlilini aparmaq, təhlilin nəticəsinə uyğun olaraq Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.5.7. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədləri ilə verilmiş tapşırıqların, habelə təsdiq edilmiş tədbirlər planlarının icrasını səlahiyyətləri daxilində təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

6.5.8. Dövlət və qeyri-dövlət qurumları ilə qarşılıqlı məlumat mübadiləsi işini təşkil etmək;

6.5.9. Dövlət və qeyri-dövlət qurumları ilə Dövlət Vergi Xidməti arasında zəruri hesab edilən məlumatların inteqrasiyasının təmin edilməsini təşkil etmək;

6.5.10. Məlumat mübadiləsi sahəsində avtomatlaşdırılmış vergi informasiya sisteminin təmin edilməsi ilə əlaqədar olaraq dövlət və qeyri-dövlət qurumları ilə Dövlət Vergi Xidmətinin struktur bölmələri və qurumları arasında əlaqələndirmənin həyata keçirilməsi məqsədilə təşkilati işləri görmək;

6.5.11. Müvafiq sahə üzrə informasiya təchizatının idarə edilməsini və proqram təminatının müasir tələblərə uyğunlaşdırılması məqsədilə təkmilləşdirilmələrin aparılması üçün mövcud məlumat bazasının aidiyyəti qurumlarda olan məlumat bazasına inteqrasiyası ilə bağlı təşkilati işləri təmin etmək;

6.5.12. Vergilərin hesablanmasında istifadə etmək məqsədilə əlavə məlumat mənbələrinin növünü və avtomatlaşdırılmış vergi informasiya sisteminə inteqrasiyası üçün formatını müəyyən etmək, məlumatların inteqrasiya edilməsinə nəzarət etmək;

6.5.13. Dövlət Vergi Xidmətinin avtomatlaşdırılmış vergi informasiya sisteminə aidiyyəti qurumlardan daxil olan məlumatların mütəmadi olaraq inventarlaşdırılması və onun optimallaşdırılması məqsədilə təşkilati işləri təmin etmək;

6.5.14. Dövlət və qeyri-dövlət qurumlarından məlumat mübadiləsi çərçivəsində Dövlət Vergi Xidmətinə daxil olan aidiyyəti məlumatların düzgün və vaxtında Dövlət Vergi Xidmətinin uçot məlumat bazasına işlənilməsini təmin etmək;

6.5.15. Dövlət və qeyri-dövlət qurumlarından məlumat mübadiləsi çərçivəsində Dövlət Vergi Xidmətinə daxil olan məlumatların düzgün və vaxtında Dövlət Vergi Xidmətinin uçot məlumat bazasına işlənilməsinə nəzarəti həyata keçirmək;

6.5.16. Bu əsasnamə ilə Şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə şöbəyə daxil olmuş məktub, sorğu, ərizə, şikayət təklif (inzibati şikayətlər, korrupsiya və vergi ödəyicilərinin

vergidən yayınması, vergi qanunvericiliyinin pozulması faktları ilə bağlı üçüncü şəxslərdən daxil olmuş müraciətlər istisna olmaqla), qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxaraq, həmin sənədlərin araşdırılmasını və cavablandırılmasını təmin etmək;

6.5.17. Qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar olaraq şöbənin funksional fəaliyyəti ilə bağlı Dövlət Vergi Xidmətinin təşkilati-sərəncamverici sənədlərinin həmin dəyişikliyə uyğunlaşdırılmasını təmin etmək;

6.5.18. Dövlət Vergi Xidmətinin inkişaf konsepsiyasının həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin etmək;

6.5.19. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin öyrənilməsini təmin etmək;

6.5.20. Baş İdarənin rəhbərliyi tərəfindən verilən göstəriş və tapşırıqların vaxtında və düzgün şəkildə icrasını təmin etmək;

6.5.21. Şöbədə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;

6.5.22. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Baş idarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

6.5.23. Şöbə tərəfindən görülmüş işlərin nəticələri barədə müəyyən olunmuş forma üzrə hesabatlar hazırlamaq və Baş idarənin rəhbərliyinə təqdim etmək;

6.5.24. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

6.5.25. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

6.5.26. Müvafiq sahədə hüquqi aktların layihələrinə rəyin verilməsini təmin etmək, eləcə də normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

6.5.27. Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**6.6. İnformasiya təminatı və hesabatlıq şöbəsinin hüquqları aşağıdakılardır:**

6.6.1. Baş idarənin funksional fəaliyyəti ilə bağlı vergi orqanlarının məlumatları üzrə hesabat göstəriciləri sistemini, hesabatların tərtib edilməsi qaydalarını müəyyənləşdirmək;

6.6.2. Baş idarənin struktur bölmələri tərəfindən təqdim edilmiş hesabat məlumatlarının dövrü, üsulu və forması ilə bağlı təkliflər vermək;

6.6.3. Baş idarənin strukturları tərəfindən təqdim edilmiş hesabat məlumatlarının düzgünlüyünü yoxlamaq, zərurət yarandıqda həmin strukturların vəzifəli şəxslərindən izahat alınması;

6.6.4. Baş idarə tərəfindən keçirilən monitorinqlərdə iştirak etmək;

6.6.5. İnformasiya təminatı ilə bağlı Baş idarənin strukturlarının müraciətlərini araşdırmaq və zərurət yarandığı təqdirdə baş idarənin rəhbərliyinə təkliflər etmək;

6.6.6. Səlahiyyətlərinə aid edilən məsələlər üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr, həmçinin tədqiqatlar aparmaq, analitik materiallar və təqdimatlar hazırlamaq;

6.6.7. Müvafiq sahə üzrə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin struktur bölmələrinə və qurumlarına, dövlət qurumlarına və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi barədə sorğular hazırlamaq;

6.6.8. Şöbənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, vəzifə və hüquqlarına aid dəyişikliklərin edilməsi istiqamətində öz səlahiyyətləri daxilində Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.6.9. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Baş idarənin rəhbərliyinə təkliflər vermək;

6.6.10. Səlahiyyətinə aid edilmiş məsələlər üzrə vergi siyasətinin və vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

6.6.11. Görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi məqsədilə müvafiq təkliflər (layihələr) hazırlamaq;

6.6.12. Şöbəyə həvalə edilmiş vəzifələrin icrası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədilə treninqlərin keçirilməsi üçün təkliflər vermək;

6.6.13. İqtisadiyyat Nazirliyində və Dövlət Vergi Xidmətində, habelə digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Baş idarənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Baş idarəni təmsil etmək;

6.6.14. Vəzifəli şəxslərin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdə iştirak etmək, vəzifəli şəxslərin ixtisasının artırılması və fərdi qaydada mükafatlandırılması ilə bağlı təkliflər vermək;

6.6.15. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

6.6.16. Müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

6.6.17. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və təşkilati-sərəncamverici sənədlərlə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.